RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 87 (8680) ÇƏRŞƏNBƏ AXŞAMI, 27 aprel 2021-ci il

Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur

www.azerbaijan-news.az

# Azərbaycan pandemiyaya qarşı qlobal fəaliyyətin səfərbər edilməsi səylərinin önündə gedir

## Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının 77-ci sessiyasında videoformatda çıxışı təqdim edilib



Aprelin 26-da BMT-nin qərargahı Tailandda yerləşən Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının "Asiya və Sakit okean hövzəsində regional əməkdaşlıq vasitəsilə böhranlardan sonra daha güclü inkişafın təmin olunması" mövzusuna həsr edilən 77-ci sessiyası öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, sessiyanın Asiya və Sakit okean regionu ölkələrinin dövlət və hökumət başçılarının çıxışları seqmentində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin videoformatda çıxışı təqdim olunub.

### Prezident İlham Əliyevin çıxışı

- Hörmətli dövlət və hökumət başçıları.

Hörmətli BMT Baş katibinin müavini.

İlk növbədə, məni BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının 77-ci sessiyasında çıxış etmək üçün dəvət etdiyinizə görə təşəkkür edirəm. Azərbaycan Asiya və Sakit okean hövzəsi ölkələri ilə münasibətlərə böyük əhəmiyyət verir.

COVID-19 pandemiyası dünya ölkələrini yeni çağırışlarla üz-üzə qoymuşdur. Azərbaycan hökuməti ilk günlərdən pandemiya ilə mübarizə istiqamətində zəruri addımlar atmışdır. Koronavirusun iqtisadiyyata təsirinin azaldılması, özəl sektorun dəstəklənməsi, makroiqtisadi və maliyyə dayanıqlığının təmin olunması məqsədilə geniş sosial-iqtisadi paket təqdim edilmişdir.

Biz yanvar ayından etibarən vaksinasiyaya başlamışıq. Bu günədək 1.4 milyon vaksin istifadə olunmuşdur ki, bu da əhalimizin 14 faizini təşkil edir.

Lakin yalnız milli səviyyədə həyata keçirilən səylər dünyada pandemiyanın aradan qaldırılması üçün kifayət etmir.

Azərbaycan pandemiyaya qarşı qlobal fəaliyyətin səfərbər edilməsi səylərinin önündə gedir. Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının koronavirusla mübarizəyə həsr edilmiş Zirvə toplantısının təşəbbüskarı olmuş və onu uğurla keçirmişdir. Bizim təşəbbüsümüzlə ötən ilin dekabr ayında BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirilmişdir.

"Vaksin millətçiliyi", vaksinlərin inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında ədalətsiz bölgüsü bizi dərindən narahat edir. Dünyada mövcud vaksinlərin 53 faizi 30-dan çox zəngin dövlət tərəfindən sifariş edilib.

Azərbaycan həm Qoşulmama Hərəkatının sədri kimi, həm də milli səviyyədə dünyada vaksinlərin ədalətli bölgüsü və vaksinlərin inkişaf etməkdə olan və ən az inkişaf etmiş ölkələr üçün əlçatanlığının təmin edilməsi istiqamətində mübarizəsini davam etdirəcəkdir.

Bu yaxınlarda BMT-nin İnsan Hüquqları Şurası Azərbaycan tərəfindən Qoşulmama Hərəkatı adından irəli sürülmüş, ölkələrin vaksinlərə bərabər çıxışı ilə bağlı qətnaməni yekdilliklə qəbul etmişdir.

Azərbaycan koronavirusla bağlı əksəriyyətinin ən az inkişaf etmiş olduğu 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərmişdir.

Ötən il Azərbaycan ərazisinin 20 faizinin 30 ilə yaxın Ermənistan tərəfindən işğalına son qoymuşdur. İşğal nəticəsində bir milyondan çox azərbaycanlı doğma torpaqlarından didərgin salınmışdır. Ermənistan 1992-ci ildə Xocalı soyqırımını törədərək, qadınlar və uşaqlar da daxil olmaqla 613 nəfər günahsız dinc sakini qətlə yetirmişdir. Xocalı soyqırımı 13 ölkə tərəfindən tanınmışdır.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Lakin həmin qətnamələr heç vaxt Ermənistan tərəfindən icra edilməmişdir. Mən ikili standartlara yol verilməməsi üçün tərəfdaş ölkələri BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmlərinin təklif edilməsi və hazırlanması səylərinə qoşulmağa dəvət edirəm. Biz Təhlükəsizlik Şurasının bəzi qətnamələrinin bir neçə gün ərzində icra edildiyinin şahidi olmuşuq. Azərbaycana gəldikdə isə, həmin qətnamələr 27 il ərzində yerinə yetirilməmiş qaldı. Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə Ermənistanın əməl edəcəyinə dair heç bir ümid yox idi. Bütün bu illər ərzində Ermənistana qarşı heç bir təzyiq olmamış və sanksiyalar tətbiq edilməmişdir.

Əksinə, Ermənistanın hərbi-siyasi rəhbərliyi Azərbaycanı "yeni torpaqlar uğrunda yeni müharibə" ilə hədələyirdi. 2020-ci ilin iyul ayında Ermənistan dövlət sərhədində hərbi təxribat törətmişdir. Avqust ayında isə Ermənistanın diversiya qrupu təmas xəttini keçməyə cəhd etmişdir.

Sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrimizi və dinc sakinlərimizi ağır artilleriya atəşinə tutaraq Azərbaycana qarşı irimiqyaslı hərbi təcavüzə başlamışdır. Azərbaycan öz vətəndaşlarını qorumaq üçün əks-hücum əməliyyatına başlamaq məcburiyyətində qaldı. Azərbaycan özü BMT Təhlükəsizlik Şurasının qətnamələrini və beynəlxalq hüququn norma və prinsiplərini icra etmiş, tarixi ədaləti və ərazi bütövlüyünü bərpa etmişdir.

44 günlük Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tamamilə darmadağın olunmuşdur. Ermənistan 2020-ci il noyabrın 10-da kapitulyasiya aktını imzalamağa məcbur edilmişdir. Beləliklə, Ermənistan-Azərbaycan münaqişəsi sona çatmışdır. Münaqişə tarixdə qalmışdır.

İşğal dövründə Azərbaycanın bütün şəhər və kəndləri yerləyeksan edilmişdir. Xarici mütəxəssislər Ağdam şəhərini "Qafqazın Xirosiması" adlandırırlar. Ermənistan qəsdən mədəni və dini abidələrimizi vandalizmə məruz qoymuş, təhqir və qarət etmişdir. 60-dan artıq məscid Ermənistan tərəfindən dağıdılmışdır. Məscidlər inək və donuzların saxlanılması yerlərinə çevrilmişdir.

Hazırda qarşımızda işğaldan azad olunmuş ərazilərdə tamamilə dağıdılmış şəhər və kəndlərin, bütün mədəni və dini abidələrin bərpası kimi nəhəng vəzifə dayanır. Yenidənqurma prosesi çərçivəsində "ağıllı" şəhər, "ağıllı" kənd və "yaşıl enerji" konsepsiyalarından istifadə olunacaq. Mən dost ölkələrdən olan şirkətləri işğaldan azad olunmuş, Lüksemburqdan dörd dəfə böyük olan ərazidə irimiqyaslı yenidənqurma işlərinə dəvət edirəm.

Bu yaxınlarda mən növbəti on il üçün sosial-iqtisadi inkişafla bağlı milli prioriteti müəyyən etmişəm ki, buraya rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi də daxildir.

Azərbaycan regionda dayanıqlı sülh və təhlükəsizliyi təmin etmək arzusundadır. Azərbaycan Şərq-Qərb, Şimal-Cənub, Şimal-Qərb nəqliyyat dəhlizləri kimi regional bağlantı layihələrinin icrasına mühüm töhfə vermişdir. Hazırda biz Azərbaycan ərazisindən Asiyanı Avropa ilə birləşdirən Şərq-Qərb dəhlizinin tərkib hissəsi olacaq "Zəngəzur nəqliyyat dəhlizi" üzərində çalışırıq. Bu dəhliz Azərbaycana Avrasiyanın nəqliyyat və logistika mərkəzi kimi mövqeyini gücləndirməyə imkan verəcək. Mən Asiya və Sakit okean hövzəsindən olan tərəfdaş ölkələri bu regional layihənin potensialını nəzərdən keçirməyə dəvət edirəm.

Diqqətinizə görə sağ olun.



# Azərbaycan tarixi ədalətin bərpasını tələb edir

## Prezident İlham Əliyev Co Baydenin məlum bəyanatını yanlış və qəbuledilməz saydı

Dünya erməniliyinin bədnam "Böyük Ermənistan" xülyasını reallaşdırmaq üçün ortaya atdığı yalanlardan biri saxta soyqırımı iddialarıdır. On illərdir bu barədə hay-həşir salsalar da, indiyə qədər ortaya fakt qoya bilməyiblər. Ermənistanın baş vermiş hadisələrin araşdırılması məqsədilə Türkiyənin ortaq komissiya yaratmaq təklifinə müsbət cavab verməməsi də soyqırımı iddialarının həqiqətə söykənmədiyini göstərir.

### ABŞ prezidenti tarixi səhvini etdi

Buna baxmayaraq, təəssüflə qeyd etməliyik ki, müasir dünyamız erməni yalanlarına və beynəlxalq səviyyədə göstərilən himayədarlığa şahidlik etməkdədir. Aprelin 24-də ABŞ prezidenti Co Baydenin 1915-ci il hadisələrini "erməni soyqırımı" adlandırması bunun növbəti nümunəsidir. Co Baydenin dedikləri tarixin təhrifindən, yerləşdiyi regonun söz sahibi olan Türkiyə dövlətinə qarşı nümayiş etdirilən qərəzdən başqa bir şey deyil.

Ermənistan saxta soyqırımı iddialarını heç bir faktla əsaslandıra bilməyib. Amma ermənilərin 1905-1907, 1918 və 1920-ci illərdə Azərbaycanın müxtəlif bölgələrində, 1915-ci ildə Türkiyənin əyalətlərində kütləvi qətliamlar törətdlikləri barədə faktlar kifayət qədərdir. 613 nəfər azərbaycanlının qətlə yetirildiyi Xocalı soyqırımı isə lap yaxın tariximizdə, 1992-ci ildə baş verib.

Ardı 3-cü səh.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar

*Aprelin 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva Cəbrayıl və Zəngilan rayonlarında olublar.*

*AZƏRTAC xəbər verir ki, səfərdən geniş hesabat qəzetin növbəti nömrəsində dərc ediləcək.*

## Leyla ABDULLAYEVA: "Məhz cəzasızlıq səbəbindən Los-Ancelesdə radikal ermənilərin nifrət zəminində cinayətlərinin növbəti təzahürünü görürük"

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Los-Anceles şəhərində radikal erməni qüvvələri tərəfindən təşkil olunan aksiyada Azərbaycan bayrağına büründürülmüş manikenin edam edilməsi səhnəsinə münasibət bildirib.

XİN-in Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Leyla Abdullayeva bununla bağlı deyib: "Bu, kifayət qədər ciddi məsələdir. Bildiyiniz kimi, ilk dəfə deyil ki, radikal erməni qruplarının bu kimi nifrətə əsaslanan, hətta cinayət tərkibli əməlləri ilə üzləşirik.

Xatırlatmaq istərdim ki, hələ ötən ilin iyulunda yüzlərlə radikal erməni daşnakları Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğunun qarşısında azsaylı azərbaycanlılara vəhşicəsinə hücum edərək onlara xəsarət yetirmişdilər. Los-Anceles Polis İdarəsi azərbaycanlılara qarşı həyata keçirilmiş bu zorakılıqla bağlı nifrət zəminində törədilən cinayət maddəsi üzrə araşdırma başlatmışdı. Bu zorakılıqda iştirak edən iki nəfər saxlanılsa da, prosesdə xüsusi fəallıq göstərmiş digər iki nəfərin axtarışı hələ də davam edir. Hadisədən 10 aya yaxın müddətin keçməsinə baxmayaraq, nifrət zəminində cinayətin törədilməsində şübhəli bilinən əsas şəxslərin tapılıb məsuliyyətə cəlb edilməməsi böyük təəssüf və təəccüb doğurur. Bununla bağlı tərəfimizdən qarşı tərəfə rəsmi narazılıq bildirilib. Göründüyü kimi, məhz cəzasızlıq səbəbindən Los-Ancelesdə radikal ermənilərin nifrət zəminində cinayətlərinin növbəti təzahürünü görürük. Bu məsələ ilə bağlı ciddi narahatlığımız ABŞ-ın ölkəmizdəki səfirliyinə bir daha çatdırılacaq".

## *Ermənilər sosial şəbəkələrdə od püskürdülər:* "Əsl "erməni soyqırımı"nı ABŞ Sorosun əli ilə edir"

ABŞ prezidenti Co Baydenin 1915-ci il hadisələri ilə bağlı səsləndirdiyi fikirlər tarixi gerçəkliklərdən tamamilə uzaq olmaqla yanaşı, Ermənistan üçün ciddi problemlərin növbəti başlanğıcı hesab edilir. Qeyd edilənlər fonunda "soyqırımı" sözünün işlədilməsi heç də bütün ermənilərin ürəyincə deyil. Hətta Ermənistanda belə bir fikir hakimdir ki, ABŞ Corc Sorosun vasiəsilə burada ermənilərə qarşı siyasi, sosial, iqtisadi soyqırımı törədir.

### "Paşinyanın hakimiyyəti Soros fonduna bağlıdır"

"4rd.am" saytı yazır ki, Nikol Paşinyanın hakimiyyəti dövründə Corc Sorosun təsirində olan QHT-lərin nümayəndələri hakimiyyətdə postlar tutmağa başladı: "Hazırda Sorosun "Açıq Cəmiyyət İnstitutu" Ermənistanda praktiki olaraq bütün sferaları - media, siyasi təşkilatlar, gənclər qurumları, insan hüquqlarının müdafiəsi, təhsil, elm və digər çoxsaylı qurumları maliyyələşdirir. Soros fondu Ermənistanda təkcə "medianın inkişafı" adı altında 5 milyon dollardan çox pul xərcləyib. Bu media orqanları Paşinyanın hakimiyyətə gəlməsində və Azərbaycan qarşısında aldığı ağır məğlubiyyətə baxmayaraq, hakimiyyətdə qalmasında müstəsna rol oynayır".

Soros fondu Ermənistanı faktiki iflasa aparıb. Erməni ekspert Ruben Artomyan bu xüsusda bildirir: "Paşinyan hakimiyyəti bütün mənalarda Soros fonduna bağlıdır. Hökumətlə vətəndaşların arasında olan qarşıdurmalar o qədər gərginliklər yaradıb ki, xalqın həyat tərzi, yaşam səviyyəsi aşağı düşüb. Paşinyan hakimiyyətə gələndə insanların ifadə azadlığı, azad toplaşma hüququ, hüquq mühafizə orqanları tərəfindən lüzumsuz yerə güc tətbiq olunmaması, KİV-in sərbəst fəaliyyətinə imkan yaradılması gözlənilirdi. Amma onun Soros fonduna bağlı kadrları hər şeyi əksinə etdi. Ermənistanda sosial durum çox ağırdır və bu durumun ağırlığı insanların fərqli qərarlar verməsinə səbəb olur. İnsanlar Soros hakimiyyətindən yaxa qurtarmağa can atırlar".

Ardı 3-cü səh.

# Hikmət HACIYEV: "İsrail-Azərbaycan münasibətləri xalqlarımızın dostluğuna əsaslanır"

Türkiyə Azərbaycana qardaş ölkə, İsrail isə bizim strateji tərəfdaşımızdır. Biz istəyirik ki, dostlarımız bir-biri ilə də dostluq etsinlər. AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin bu fikirləri Şmuel din Elmasın İsraildə çıxan nüfuzlu "Israel HaYom" qəzetində dərc olunmuş məqaləsində yer alıb.



Müəllif qeyd edir ki, son bir ildə İsrail ilə Azərbaycan arasında əlaqələr əhəmiyyətli dərəcədə genişlənib. Məqalədə deyilir: "1991-ci ildə Azərbaycan öz müstəqilliyini elan etdiyi vaxtdan ölkələrimiz arasında təhlükəsizlik, iqtisadiyyat və humanitar sahədə əməkdaşlıq daim yaxşılaşıb. 2020-ci ildə Dağlıq Qarabağda müharibə dövründə bu əməkdaşlıq apogeyə çatıb. Azərbaycan həmin müharibədə inandırıcı və parlaq Qələbə qazanıb".

Müəllif yazır: "Hikmət Hacıyev Azərbaycanın ikinci böyük şəhəri olan, müharibə dövründə düşmən tərəfindən atəşə tutulmuş Gəncədə doğulub. Müharibə başlananda Hikmət Hacıyev Gəncənin ermənilər tərəfindən bombalanmasından zərərçəkmiş dinc sakinlərə baş çəkmək, onların döyüş ruhunu yüksəltmək üçün oraya gedib".

Hikmət Hacıyev "Israel HaYom" qəzetinin müxbiri ilə söhbətində İsrailə və bu ölkənin vətəndaşlarına hədsiz hörmət bəslədiyini, rəsmi Bakının İsrail-Türkiyə yaxınlaşmasını çox mühüm fakt hesab etdiyini bildirərək deyib: "Türkiyə Azərbaycana qardaş ölkə, İsrail isə bizim strateji tərəfdaşımızdır. Biz istəyirik ki, dostlarımız bir-biri ilə də dostluq etsinlər. Əgər tərəflər bu təşəbbüsü qəbul etsələr, Azərbaycan onları həmişə alqışlayacaq".

Azərbaycan Prezidentinin köməkçisi qəzetə eksklüziv müsahibəsində aşağıdakı bir neçə sualı da cavablandırıb.

**- İsrail ilə Azərbaycan arasında münasibətlərin unikallığı nədən ibarətdir?**

- Bizim münasibətlərimiz təkcə sözdə deyil, əməli işdə də strateji münasibətlərdir. Biz bir-birimizi anlayırıq. Mənim fikrimcə, bu münasibətlərin əsasını xalqlarımız arasında əlaqə təşkil edir. İsrail-Azərbaycan münasibətləri tarixən səmimi anlaşmaya əsaslanır. Azərbaycan ilə sabit yaxşı münasibətlər bütün dünyada yəhudi xalqının mənafeyinə uyğundur, lakin bəzi ölkələr bizim tərəfdaşlığımıza və əməkdaşlığımıza ziyan vurmağa çalışır.

Bayden administrasiyasının qondarma erməni soyqırımını tanımaq barədə qərarı hazırda azərbaycanlılar üçün çox aktual məsələdir. Bu barədə Hikmət Hacıyevin mövqeyi birmənalıdır. O deyir: "Bu, tarixi səhvdir, heç nəyi Holokosta bərabər tutmaq olmaz".

**- Siz Vaşinqtondakı yəhudi lobbisi ilə əlaqə saxlayırsınızmı?**

- İsrail ilə bütün sahələrdə çox yaxşı münasibətlərimiz var. Bu münasibətlər yəhudi və Azərbaycan xalqları arasında dostluğa və harmoniyaya əsaslanır. Bizim üçün lobbi termini yoxdur; dünyanın bütün başqa yerlərində olan yəhudilər kimi, ABŞ-da yaşayan yəhudilər də Azərbaycanın dostlarıdır.

ABŞ-da fəaliyyət göstərən yəhudi təşkilatları Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında bizə çox kömək edirlər. Bu həqiqət ondan ibarətdir ki, biz regionda əməkdaşlığın, Cənubi Qafqazda sülhün və sabitliyin yeni parametrlərini qurmağa çalışırıq.

Azərbaycanda müxtəlif mədəniyyətlərin və müxtəlif dinlərin nümayəndələri əsrlərboyu dinc yanaşı yaşayıblar. Biz fəxr edirik ki, bütün dünyadakı yəhudilər kimi Azərbaycanda yaşayan yəhudilər də bizə real kömək edirlər.

İsraillilər Azərbaycana gələndə onlar bizim İsrailə münasibətimizi görürlər və siz özünüz də görə bilərsiniz ki, Azərbaycanın hər yerində İsrail bayraqları asılıb. Bu, Azərbaycan xalqının səmimi arzusundan irəli gəlir və ölkələrimiz, xalqlarımız arasında münasibətlərə görə minnətdarlıq ifadəsidir. Bizim qarşılıqlı anlaşmamız, dövlətlərarası diplomatik münasibətlərimiz çox yüksək səviyyədədir. Azərbaycan öz müstəqilliyini elan edəndə İsrail onu müstəqil dövlət kimi tanımış ilk ölkələrindən biri oldu.

Vətən müharibəsində zərərçəkmiş azərbaycanlı əsgər və zabitlərin müalicəsi üçün israilli oftalmoloqlardan ibarət nümayəndə heyətinin ölkəmizə gəlməsi Azərbaycan xalqını çox mütəəssir etdi. Onlar Azərbaycana gəldilər və gündə 10-15 əməliyyat apardılar. Bu, yəhudi xalqına hörmət və ehtiramın əbədi əlaməti kimi qalacaq, başqa insanın həyatına görə bu narahatlıq hissi yəhudilərin DNT-sindən irəli gəlir. Bu, İsrailin bizə kömək etmək arzusu ilə bağlıdır. Biz yaralı döyüşçülərimizə kömək məqsədilə İsrailin təcrübəsindən istifadə etməklə başqa oxşar təşəbbüsləri də reallaşdırmaq niyyətindəyik.

**- Siz İsrail şirkətlərini Qarabağın bərpası prosesinə cəlb etməyə hazırlaşırsınızmı?**

- Biz İsrail şirkətləri ilə də əlaqə saxlayırıq və hökumətlərarası əlaqələrdən istifadə edirik. İsrail şirkətlərinin bizə kömək etmək üçün sanballı texnoloji potensialı var. Biz "ağıllı" şəhərlər salınmasında və su ehtiyatlarının idarə edilməsi sektorunda İsrail şirkətlərinin köməyinə maraq göstəririk.

**- Son olaraq İsrailə nə ismarıcınız var?**

- Mən İsrailə sülh arzulamaq və belə bir inamımı bildirmək istəyirəm ki, Azərbaycan və İsrail xalqları tarixən real dostlardır. İsrail xalqı sülhün olmamasına görə həmişə əziyyət çəkib. Biz İsrail xalqına sülh, İsrail dövlətinə həmişə uğur diləyirik.

# Türkiyənin yeni səfiri etimadnaməsinin surətini Azərbaycanın xarici işlər nazirinə təqdim edib

Aprelin 26-da xarici işlər naziri Ceyhun Bayramov Türkiyə Respublikasının ölkəmizə yeni təyin olunmuş səfiri Cahit Bağcının etimadnaməsinin surətini qəbul edib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov səfir Cahit Bağcını təyinatı münasibətilə təbrik edərək, Azərbaycan ilə Türkiyə arasında mövcud olan sıx dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərini məmnunluqla qeyd edib.

Cahit Bağcının ölkəmiz üçün xüsusi bir dönəmdə səfir təyin olunduğunu qeyd edən nazir Azərbaycan ərazilərinin bir hissəsinin 30 ilə yaxın davam edən işğalına son qoyulduğunu və torpaqlarımızın azad olunduğunu vurğulayaraq, bu xüsusda Türkiyənin Azərbaycanın haqq mövqeyinə verdiyi dəstəyin qardaş ölkələrimizin bir millət, iki dövlət olduğunu növbəti dəfə sübut etdiyini bildirib. Münaqişədən sonrakı mərhələdə ölkələrimizin diplomatik və siyasi sahələrdə fəaliyyəti üçün yeni dövrün başlandığı vurğulanıb.

Nazir Ceyhun Bayramov həmçinin qondarma "soyqırımı" mövzusuna toxunaraq, bu hadisələrin "soyqırımı" kimi qələmə verilməsinin reallıqla əlaqəsinin olmadığını, bunun siyasi təzyiqin təzahürü olduğunu Türkiyə səfirinin diqqətinə çatdırıb.

Qəbula görə nazir C.Bayramova təşəkkürünü ifadə edən səfir Cahit Bağcı Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlunun səmimi salamlarını nazirə çatdırıb. Türkiyə-Azərbaycan münasibətlərinin zirvədə olduğunu qeyd edən səfir iki ölkə rəhbərinin dostluq və qardaşlıq əlaqələrinin bu xüsusda önəmli rolunu vurğulayıb. Cahit Bağcı səfir kimi fəaliyyəti dövründə ikitərəfli əlaqələrin səviyyəsinin daha da inkişaf etdirilməsi ilə yanaşı, üç, dörd və çoxtərəfli formatlarda da əməkdaşlığın genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirib.

Nazir Ceyhun Bayramov Türkiyənin yeni səfirinə fəaliyyətində uğurlar arzulayıb.

# Serbiyanın yeni səfiri etimadnaməsinin surətini Azərbaycanın xarici işlər nazirinə təqdim edib

Aprelin 26-da xarici işlər naziri Ceyhun Bayramov Serbiya Respublikasının Azərbaycan Respublikasına yeni təyin olunmuş səfiri Draqan Vladisavlieviçin etimadnaməsinin surətini qəbul edib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, səfiri təyinatı münasibətilə təbrik edən nazir Ceyhun Bayramov ölkələrimiz arasında mövcud olan strateji tərəfdaşlıq münasibətlərini məmnunluqla vurğulayıb. Nazir Serbiyanın ölkəmizə yeni səfirinin təyin edilməsinin ölkələrimiz arasında münasibətlərin daha da inkişafına müsbət təsir göstərəcəyini bildirib. Dövlətlərarası münasibətlərdə Azərbaycan və Serbiyanın beynəlxalq hüququn prinsiplərinə, xüsusilə də dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsipinə birmənalı dəstək verdikləri vurğulanıb.

Nazir Ceyhun Bayramov Azərbaycanın hazırda tarixi mərhələ yaşadığını qeyd edərək, Serbiya səfirinə 44 günlük müharibədən sonra bölgədə mövcud vəziyyətlə bağlı məlumat verib.

Görüşə görə təşəkkürünü bildirən səfir Draqan Vladisavlieviç Serbiyanın xarici işlər naziri Nikola Selakoviçin səmimi salamlarını nazir Ceyhun Bayramova çatdırıb. Serbiya ilə Azərbaycanın oxşar problemlərlə üzləşdiyini qeyd edən səfir dövlət suverenliyinin qorunub saxlanılmasına dəstəyin önəmli olduğunu bildirib, Serbiyanın Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qətiyyətli dəstək verdiyini vurğulayıb.

Görüşdə tərəflər dövlətlərimiz arasında strateji münasibətlərin daha da inkişaf etdirilməsi üzrə müvafiq addımların atılması, o cümlədən qarşılıqlı səfər mübadiləsinin həyata keçirilməsi, Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında Ticari və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın növbəti iclasının keçirilməsi, ticarət mübadiləsinin artırılması, habelə digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi üzrə fikir mübadiləsi aparıblar.

Öz növbəsində nazir C.Bayramov serbiyalı həmkarına səmimi salamlarını çatdırıb və səfir Draqan Vladisavlieviçə fəaliyyətində uğurlar arzu edib.

# Türkiyə mediası: Azərbaycan bütün varlığı ilə Türkiyəni dəstəkləyir

ABŞ Prezidenti C.Baydenin qondarma "erməni soyqırımı" ilə əlaqədar ədalətsiz bəyanatı ilə bağlı Azərbaycanın Türkiyəyə verdiyi dəstək qardaş ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılanıb. Türkiyə cəmiyyətinin bütün təbəqələrində bu dəstək əsl qardaşlıq nümunəsi kimi dəyərləndirilir.







AZƏRTAC xəbər verir ki, aprelin 24-də məlum bəyanatdan dərhal sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasındakı baş tutan telefon danışığı qardaş ölkənin kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

Anadolu, DHA, İHA xəbər agentlikləri, "TRT Haber", "TRT Avaz", "Haber Türk", "A Haber", "Haber Global" telekanalları, "Milliyet", "Akşam" və digər qəzetlər də daxil olmaqla ölkənin aparıcı media orqanları tərəfindən yayılan xəbərlərdə Azərbaycanın qardaş dəstəyi önə çəkilib. "Anadolu" Agentliyi bu barədə informasiyanı bir neçə dildə yayıb. Türkiyə mediası ABŞ Prezidentinin bəyanatını tarixi səhv adlandıran Prezident İlham Əliyevin telefon danışığı zamanı səsləndirdiyi fikirləri ictimaiyyətə günün baş xəbəri kimi təqdim edib.

Azərbaycan xalqı, dövləti və hökuməti tərəfindən ABŞ Prezidentinin məlum açıqlamasına göstərilən sərt reaksiya ölkənin aparıcı mətbuat orqanlarının əsas mövzusu olaraq qalır. Diqqətə çatdırılır ki, Türkiyəyə qarşı bu ədalətsizliyə hazırda Azərbaycan ictimaiyyəti yekdil şəkildə etirazını nümayiş etdirir.

Milli Məclisinin sədri Sahibə Qafarova ilə Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop, Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu arasında telefon danışıqları da bu ölkənin KİV-ləri tərəfindən geniş işıqlandırılıb. Qeyd olunub ki, Azərbaycan dövləti və xalqı sonadək Türkiyənin yanında olacağını ifadə edib. Türkiyə mediası, həmçinin Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin məsələ ilə bağlı açıqlamasına da yer ayırıb.

Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların ABŞ Prezidentinin qondarma "erməni soyqırımı" məsələsi ilə bağlı mövqeyinə dair bəyanatı da Türkiyə kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olub. "Azərbaycanda siyasi partiyalardan ortaq bəyanat: ABŞ Prezidentinin mövqeyini sərt şəkildə qınayırıq" sərlövhəsi ilə yayılan bu xəbər ölkə mətbuatının manşet xəbəri kimi təqdim edilib.

Qeyd edək ki, Türkiyədə yaşayan və fəaliyyət göstərən Azərbaycan icmasının nümayəndələri, dərnək rəhbərləri, elm və mədəniyyət adamları da məsələ ilə bağlı kəskin etiraz nümayiş etdiriblər. Soydaşlarımızın sosial şəbəkələrdə Türkiyəyə dəstək və ədalətsizliyə etiraz səsi səngimək bilmir.

Xəbərlərin əksəriyyəti AZƏRTAC-a istinad olunmaqla təqdim edilib.

# Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib

Aprelin 26-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclasda ilk olaraq "Ələt Azad İqtisadi Zonası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (birinci oxunuş) məsələyə baxılıb.

İclası açan İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili Azərbaycanda iqtisadi sahədə aparılan dövlət siyasətinin səmərəliliyindən danışıb, azad iqtisadi zonaların əhəmiyyətini qeyd edib. Komitə sədri azad iqtisadi zonaya sərmayələrin cəlb edilməsi üçün hüquqi çərçivənin dəqiq müəyyən olunmasının əhəmiyyətinə toxunub. O, 2018-ci ildə "Ələt Azad İqtisadi Zonası haqqında" qanunun qəbulundan sonra keçən müddətdə baş verən dəyişikliklər, 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbənin regionda yaratdığı yeni iqtisadi imkanlar, Zəngəzur nəqliyyat dəhlizinin açılması reallığı fonunda müzakirəyə çıxarılan qanun layihəsinin vacibliyini vurğulayıb.

Sonra iclasda Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun İdarə Heyətinin sədri Valeh Ələsgərov və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva çıxış ediblər. Qonaqlar təqdim olunan qanun layihəsinin Ələt Azad İqtisadi Zonasının fəaliyyətə başlaması və müvafiq qanunun tətbiqi təcrübəsindən irəli gəldiyini qeyd ediblər, təklif edilən dəyişikliklər barədə məlumat veriblər. Bildirilib ki, qanun layihəsi Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin və bu sahədə qanunvericiliyin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Qanun layihəsinin müzakirəsində Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli, komitə üzvləri - Vahid Əhmədov, Ziyad Səmədzadə, Vüqar Bayramov çıxış ediblər.

Deputatlar dəyişikliklərdə terminlərin dəqiqləşdirilməsinin, səlahiyyətli qurumun hüquqlarının genişləndirilməsinin, həmçinin vergi, gömrük, maliyyə məsələlərinin qətiləşdirilməsinin azad zonanın fəaliyyətinin səmərəliliyinin təmini baxımından əhəmiyyətini vurğulayıblar. Eyni zamanda, qanun layihəsində investorların cəlbi üçün nəzərdə tutulan müddəaları, mübahisələrin sahəvi bölgüsünün ləğvini, onların həllində nəzərdə tutulan qurumların siyahısına Beynəlxalq Arbitraj İnstitutunun əlavə olunmasını mütərəqqi hal kimi dəyərləndiriblər.

İclasda "Ələt Azad İqtisadi Zonası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə edilib.

Sonra komitənin müzakirəsinə çıxarılmış "Dənizçilərin şəxsiyyət sənədləri haqqında" 2003-cü il tarixli 185 nömrəli Konvensiyanın (dəyişdirilmiş) əlavələrinə edilmiş 2016-cı il tarixli dəyişikliklərin təsdiq edilməsi barədə, "Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə"nin və "Dənizçinin şəxsiyyət sənədinin spesifikasiyası, təsviri və nümunəsi"nin təsdiq olunması barədə" Azərbaycan Respublikasının 2008-ci il 1 fevral tarixli 541-IIIQ nömrəli Qanununda dəyişiklik edilməsi haqqında (birinci oxunuş) və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələri ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib.

Bildirib ki, hər üç sənəd bir-biri ilə bağlıdır və "Dənizçilərin şəxsiyyət sənədləri haqqında" 2003-cü il tarixli 185 nömrəli Konvensiyanın (dəyişdirilmiş) əlavələrinə edilmiş 2016-cı il tarixli dəyişikliklərə əsasən, dənizçilərin şəxsiyyət sənədlərinin forması və məzmununun beynəlxalq konvensiyanın tələblərinə uyğunlaşdırılması məqsədilə hazırlanıb.

İclasda deputatlar hər üç qanun layihəsini Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə ediblər.

Tədbirdə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri - Elnur Allahverdiyev, Məzahir Əfəndiyev, İmamverdi İsmayılov, Rüfət Quliyev, Anar Məmmədov, İqbal Məmmədov, Məşhur Məmmədov və digər rəsmi şəxslər də iştirak ediblər.

# XİN Çernobıl Fəlakətinin Beynəlxalq Anım Günü ilə əlaqədar açıqlama yayıb

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi Çernobıl Fəlakətinin Beynəlxalq Anım Günü və 35-ci ildönümü ilə əlaqədar açıqlama yayıb. AZƏRTAC açıqlamanı təqdim edir.

"Çernobıl Fəlakətinin Beynəlxalq Anım Gününün 35-ci ildönümü münasibətilə bu faciədən zərərçəkən ölkələrlə və bütün insanlarla həmrəyliyimizi ifadə edirik.

1986-cı ildə Ukraynanın şimal hissəsindəki Pripyat yaxınlığında Çernobılda baş verən nüvə qəzası nəhəng humanitar faciə idi. Partlayış Ukrayna, Belarus və Rusiyada müxtəlif dərəcəli çirklənməyə səbəb olan çox sayda radioaktiv materialların atmosferə buraxılmasına səbəb oldu. Bu, yüz minlərlə insanı yüksək səviyyədə radiasiyaya məruz qoyan və təxminən 350 min nəfəri radioaktiv çirklənməyə məruz qalmış ərazilərdən evlərini tərk etməyə məcbur edən ən ciddi nüvə qəzalarından biri idi. 31 nəfər dərhal həyatını itirdi və təxminən 4-27 min insan radiasiyaya məruzqalma nəticəsində həlak oldu. Partlayış yerindən yüzlərlə kilometr məsafədə yaşayan bir çox insan fəlakətdən sonra radiasiyadan xəstələndi.

Azərbaycan bəzi ölkələrlə birlikdə əraziyə 7 mindən çox xilasedici və digər şəxsi heyəti göndərərək qəzanın nəticələrinin azaldılmasında fəal iştirak etmişdir. Azərbaycan qəzadan zərərçəkmiş təqribən 7 min nəfəri müvəqqəti qəbul edib və onları lazımi reabilitasiya və müalicə ilə təmin edib. Azərbaycan çox böyük insan itkiləri ilə üzləşib, hazırda Azərbaycanda təxminən 5 min nəfər Çernobıl qəzasının nəticələrindən əziyyət çəkir. O vaxtdan bu günədək Çernobıl qəzasından təsirlənən təxminən 2 min vətəndaş vəfat edib.

Çernobıl qəzası nüvə sənayesinə böyük təsir göstərdi və təhlükəsizlik sahəsində əməkdaşlığın artmasına və yeni hüquqi sənədlərin qəbul edilməsinə səbəb oldu. Ən əsası qlobal diqqəti təhlükəsizliyə və bu dəyişikliklərə nail olmaq üçün insan və təşkilati amillərin əhəmiyyətinə yönəltdi. Bu fəlakətin genişmiqyaslı təsiri sübut etdi ki, atom elektrik stansiyalarının təhlükəsizliyi yalnız yerləşdikləri dövlətləri deyil, potensial risklərdən zərər çəkə bilən ətraf ölkələri də narahat etməlidir.

Bu xüsusda Ermənistandakı Metsamor AES ilə əlaqəli risklər beynəlxalq ictimaiyyət tərəfindən hərtərəfli şəkildə nəzərdən keçirilməlidir. Bu AES 1976-1980-ci illərdə Çernobılda istifadə edilən oxşar texnologiya ilə inşa edilmişdir və aktiv seysmik zonada yerləşir. Köhnə texnologiya və həssas zonada yerləşməsi Metsamoru dünyanın ən təhlükəli nüvə stansiyaları sırasına daxil edir. Müxtəlif beynəlxalq təşkilatların bu obyekti "bütün bölgə üçün təhlükə" adlandıraraq xəbərdarlıq etmələrinə baxmayaraq, Metsamor AES-in istismar müddətinin bitməsinə rəğmən, Ermənistan hələ də ondan istifadə etməyə davam edir.

2020-ci ildə Avropa İttifaqı növbəti dəfə Ermənistanı AES-i bağlamağa çağırdı və qeyd etdi ki, "nüvə zavodu beynəlxalq səviyyədə qəbul edilmiş nüvə təhlükəsizliyi standartlarına tam cavab verəcək şəkildə təkmilləşdirilə bilməyəcək və bu səbəbdən də onun qısa zamanda bağlanması və təhlükəsiz şəkildə istismardan çıxarılması tələb olunur".

Metsamorun istismarı zamanı köhnəlmiş texnologiyadan istifadə etmək və təhlükəsizlik qaydalarına riayət etməmək daha geniş bölgə üçün ciddi ekoloji problemlər yaradır.

Bundan əlavə, yüksək dərəcədə zənginləşdirilmiş uran kimi nüvə materiallarının qaçaqmalçılıq hadisələrinin təkrarlanması, zavodun və onun nüvə materiallarının düzgün fiziki qorunması ilə bağlı əlavə narahatlıqlar yaradır.

Bu anım günündə bütün müvafiq beynəlxalq təşkilatları, nüvə təhlükəsizliyi və ətraf mühit məsələləri ilə məşğul olan vətəndaş cəmiyyəti institutlarını, eləcə də bölgə ölkələrini potensial fəlakətin qarşısının alınması barədə ictimaiyyətin məlumatlılığını artırmağa və Metsamor AES-in bağlanması üçün səylərini səfərbər etməyə çağırırıq".

# Türkiyəli deputat: "Ermənistan işğalçılıq siyasəti və müharibə cinayətləri ilə beynəlxalq hüquq normalarını pozub"

"Beynəlxalq konvensiyalara görə, silahlı münaqişələrdə tərəflərin müharibə qaydaları və tətbiq olunan vasitələrdən istifadə məsələsində məhdudiyyətlər var. Digər qanunsuzluqlarla bərabər, qadağan olunmuş silahlardan istifadə edən Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasəti və müharibə cinayətləri ilə beynəlxalq hüququn bütün normalarını pozub".

Bu fikirləri Türkiyə Böyük Millət Məclisi İnsan Haqlarının Araşdırılması Komissiyasının sədri, Ədalət və İnkişaf Partiyasından olan deputat Hakan Çavuşoğlu Türkiyə parlamentində təşkil olunan "İkinci Qarabağ müharibəsi və Ermənistanın müharibə cinayətləri" mövzusunda panel müzakirədəki çıxışında ifadə edib.

Hakan Çavuşoğlu Azərbaycanın Qarabağ bölgəsinin tarixindən, erməni toplumunun bu bölgədə qanunsuz məskunlaşdırılmasından, keçmiş sovetlər birliyi dövründə bölgəyə əsassız olaraq muxtariyyət verilməsindən söz açıb. Bildirib ki, ermənilər yerləşdikləri Azərbaycan torpaqlarına sonralar iddialarla çıxış edib və işğalçı siyasət yürüdüblər. Nəticədə bir milyondan çox azərbaycanlı yurd yerindən qaçqın-köçkün düşüb, Xocalı şəhərində Azərbaycan xalqına qarşı soyqırımı törədilib.

Müasir dövrdə dünya birliyi tərəfindən tanınmış dövlət sərhədlərini pozmağın, əsassız ərazi iddialarının beynəlxalq hüquqla cinayət tərkibli fəaliyyət olduğunu diqqətə çatdıran deputat deyib: "Ötən il 44 günlük müharibənin başvermə səbəbi Ermənistanın işğalçılıq siyasəti və Azərbaycana qarşı davamlı hərbi hücumlarıdır. Təcavüzkar Ermənistan müharibə dövründə Azərbaycanın yaşayış məskənlərini, dinc əhalini, infrastrukturu, kommunikasiyaları məqsədli şəkildə artilleriya və raket atəşinə tutmaqla, eləcə də qadağan olunmuş silahlar, ballistik raketlər tətbiq etməklə ağır müharibə cinayətləri törədib".

## *Rəcəb Tayyib ƏRDOĞAN:* “Bir çox yerdə ermənilərin məhv etdiyi türklərin kütləvi məzarlığı olduğu halda, heç bir yerdə erməni kütləvi məzarlığı yoxdur”

“ABŞ Prezidenti Bayden bir əsrdən çox əvvəl baş verən ağrılı hadisələr barədə əsassız, ədalətsiz və real olmayan açıqlamalar verdi.

Tarixi proseslərin araşdırılması və əsl həqiqətlərin ortaya çıxarılması siyasətçilərə deyil, tarixçilərə tapşırılmalıdır... Ermənistanın Azərbaycana qarşı işğalının dəhşətli nəticələri ortada olduğu halda türkləri soyqırımında ittiham etmək haqsızlıq və ədalətsizlikdir”.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə hökumətinin növbəti iclasından sonra ictimaiyyətə müraciətində deyib.



“Azərbaycan Prezidenti, qardaşım İlham Əliyevlə Ermənistanla əldə olunan anlaşmaya dair və son proseslərlə bağlı telefon danışığı apardıq”, - deyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan vurğulayıb ki, uzun illər həllini tapmayan məlum problemin aradan qaldırılması üçün ən gözəl cavabı Qarabağda birlikdə vermişik. Qarşıdakı günlərdə bu istiqamətdə atacağımız növbəti addımları müəyyən edəcəyik. Otuz il əvvəl Azərbaycan torpaqlarında törədilənlərin ortada olduğunu diqqətə çatdıran Prezident Rəcəb Tayyib Ərdoğan deyib: “Problemin həlli üçün ABŞ, Rusiya və Fransanın təmsilçiliyi ilə yaradılan Minsk qrupu heç bir iş görmədi. Bu işğal nəticəsində bir milyondan çox azərbaycanlı öz yurdundan qaçqın düşdü. Həmin bölgədə bütün varlığı, binaları, tarixi dağıdıb yandırdılar”.

Birinci Dünya müharibəsinin yaratdığı acılardan bəhs edən Türkiyə Prezidenti bildirib ki, bir çox yerdə ermənilərin məhv etdiyi türklərin kütləvi məzarlığı olduğu halda, heç bir yerdə erməni kütləvi məzarlığı yoxdur.

# Azərbaycan tarixi ədalətin bərpasını tələb edir

## Prezident İlham Əliyev Co Baydenin məlum bəyanatını yanlış və qəbuledilməz saydı

*Əvvəli 1-ci səh.*

Amma C.Bayden Anadoluda və Qafqazda qətlə yetirilmiş yüz minlərlə türk və azərbaycanlı haqqında heç bir söz deməyib. Yüz il bundan öncə baş verən hadisələr təhrif olunmuş şəkildə təqdim edilərkən, cəmi 29 il əvvəl Ermənistanın Xocalıda azərbaycanlılara qarşı törətdikləri soyqırımına hələ də ədalətli qiymətin verilməməsi ancaq və ancaq qərəzliliyin nümunəsidir.

Erməni terror təşkilatlarının üzvləri 1973-cü ildən başlayaraq xaricdə yaşayan türklərə qarşı törətdikləri terror aktları nəticəsində 31-i diplomat və onların ailə üzvləri olmaqla, ümumilikdə 58 Türkiyə vətəndaşını qətlə yetiriblər. Bu terror hadisələrinin bir neçəsi elə ABŞ-da törədilib. Bu gün Ermənistan Konstitusiyasında başqa bir dövlətə qarşı ərazi iddiası olan yeganə ölkədir. Ermənistan həm də dünyada terrorçuya heykəl qoyan yeganə dövlətdir. 30 ilə yaxın idi ki, bu ölkə Azərbaycanın torpaqlarını işğal altında saxlayırdı.

Bütün bunları C.Bayden də yaxşı bilir. Bu mənada onun bunları görməzliyə vuraraq saxta erməni iddialarını dilə gətirməsi qərəzdən başqa bir şey deyil. ABŞ prezidenti bu davranışı ilə ölkəsinə də başucalığı gətirmədi.

ABŞ prezidentinin dedikləri Azərbaycanda da ciddi etirazla qarşılanıb. Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla telefon danışığında C.Baydenin qondarma “erməni soyqırımı” ilə əlaqədar verdiyi bəyanatın yanlış olduğunu bildirib və onu tarixi səhv adlandırıb. Bu bəyanatı qəbuledilməz hesab etdiyini vurğulayan Prezident İlham Əliyev Azərbaycanın hər zaman Türkiyənin yanında olduğunu qeyd edib.

### Alətə çevrilən ermənilər

C.Baydenə qədər ABŞ-ın dövlət başçısı postunda olan sələfləri bu termini işlətməkdən uzaq olublar. ABŞ kimi bir ölkənin rəhbərinin bu cür danışması həm də elə bu ölkənin özündə tarixi həqiqətlərin olduğu kimi öyrənilməsinin vacibliyini düşünənlər tərəfindən təəssüf hissi ilə qarşılanır. Bir çoxları C.Baydenin dediklərini onun erməni sevgisinin göstəricisi kimi qəbul edir. Dünya erməniliyi də bu hadisədən sonra sevinir, soyqırımı iddiaları üzərindən bayram edir. Amma baş verənləri daha dərindən və strateji dəyərləndirən ermənilər də anlayırlar ki, bu, əslində onların əleyhinə atılmış bir addımdır. Xüsusən də Azərbaycanın İkinci Qarabağ müharibəsində hərbi qələbəsindən sonra regionda yeni əməkdaşlıq imkanlarının yarandığı, Ermənistanın qonşu dövlətlərlə əlaqələri üçün əlverişli şəraitin formalaşdığı bir vaxtda ABŞ prezidentinin “soyqırımı” ifadəsini işlətməsi insanları düşündürməyə bilməz. Görünən odur ki, dünyanın bir sıra yerlərində xalqları və dövlətləri müharibələrə düçar edən, məhrumiyyətlərə məruz qoyan ABŞ Ermənistanın və erməni xalqının böhrandan çıxmasında maraqlı deyil. Bu baxımdan Co Baydenin dedikləri ona dəlalət edir ki, əslində ABŞ prezidenti “soyqırımı” ifadəsini işlətməklə ermənilərə can yandırmayıb. Sadəcə yeni reallıqlar fonunda “soyqırımı” pərdəsinə bürünməklə ABŞ Ermənistan və dünya erməniliyi kimi siyasi alətini itirmək istəmir, eyni zamanda regionda yeni əməkdaşlığın yaranmasında maraqlı deyil. Xatırladaq ki, Prezident İlham Əliyev də Rəcəb Tayyib Ərdoğanla telefon danışığında C. Baydenin açıqlamasının regionda yaranmaqda olan əməkdaşlıq meyillərinə ciddi zərər vurduğunu bildirib.

Elə Ermənistanın hazırkı halı da bu ölkənin ABŞ-da mənzillənən Soros fondu kimi təşkilatların girovluğunda olduğunu göstərir. Sorosun bu ölkədə üçtərəfli bəyanatlara qarşı əhvali-ruhiyyəni qızışdırdığı heç kimə sirr deyil.

ABŞ prezidentinin dediklərinin heç bir hüquqi əsası yoxdur və ermənilərin saxta soyqırımı iddiaları ilə bağlı heç nəyi dəyişməyəcək. Eyforiyadan ayıldıqdan və Baydenin dediklərinin heç bir əhəmiyyət kəsb etmədiyini gördükdən sonra anlayacaqlar ki, bu kimi hadisələrlə əslində özləri özlərini aldadıblar. Və həm də anlayacaqlar ki, Bayden indiyə qədər heç bir ABŞ prezidentinin demədiyini dilə gətirməklə ermənilərdən sadəcə alət kimi istifadə edibmiş.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Beynəlxalq avtodaşımalarda iştirak edən yerli şirkətlərin nümayəndələri ilə müzakirələr aparılıb



İqtisadiyyat və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirliklərinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə avtomobil nəqliyyatı vasitəsilə beynəlxalq daşımalarda iştirak edən yerli şirkətlərin nümayəndələri ilə görüş keçirilib.

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, yerli nəqliyyat müəssisələrinə və daşıyıcılara dəstək məqsədilə keçirilmiş işgüzar görüşdə dövlət qurumlarının nümayəndələri, avtomobil nəqliyyatı ilə beynəlxalq yükdaşımalar sahəsində fəaliyyət göstərən şirkətlərin təmsilçiləri iştirak ediblər. İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlət başçısının ölkəmizdə iqtisadiyyatın digər sahələri ilə yanaşı, infrastrukturun inkişafına xüsusi önəm verdiyini vurğulayıb, bu sahəyə böyük həcmdə dövlət investisiyasının yatırıldığını, nəqliyyat sektorunun təkmilləşdirilməsi məqsədilə görülən işlər nəticəsində logistika və tranzit imkanlarının genişləndiyini diqqətə çatdırıb.

Qeyd edilib ki, ölkəmizdə aparılan uğurlu iqtisadi-siyasi islahatlara uyğun olaraq, son dövrlərdə qeyri-neft sektoru üzrə ixrac, idxal və tranzit dövriyyələrinin artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu da, öz növbəsində, beynəlxalq yükdaşımaların həcminin artmasına müsbət təsir göstərir. İqtisadiyyatın inkişafında, qarşıya qoyulmuş hədəflərə nail olunmasında infrastrukturun əhəmiyyətli rol oynadığını deyən M.Cabbarov yükdaşımalar bazarında rəqabətin böyük olduğunu, yerli şirkətlərin rəqabətə davamlılığının artırılmasının vacibliyini bildirib.

Diqqətə çatdırılıb ki, yükdaşımalarda avtonəqliyyat vasitələri ilə daşımalar böyük yer tutur. Avtonəqliyyat vasitəsilə beynəlxalq yük daşıyan yerli şirkətlərin bu sahədə payının artırılması üçün mühüm addımlar atılması zəruridir. Mikayıl Cabbarov dövlət-özəl sektoru tərəfdaşlığı çərçivəsində müvafiq dövlət qurumları, avtomobil vasitəsilə beynəlxalq yükdaşıma şirkətlərinin nümayəndələri və bu sahə üzrə ictimai birliklərin təmsil olunduğu işçi qrupun yaradılmasının məqsədəuyğun olduğunu vurğulayıb. İqtisadiyyat naziri görüş iştirakçılarını fəal müzakirələrə, açıq dialoqa dəvət edib.



Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyev son dövrlərdə ölkənin nəqliyyat-tranzit infrastrukturunun inkişafı sahəsində görülən işlər, beynəlxalq yükdaşımalar istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib. Qeyd edilib ki, Azərbaycanda ümumi uzunluğu 19 min kilometrdən artıq olan avtomobil yollarının 4,7 min kilometrdən çoxu respublika əhəmiyyətlidir. İşğaldan azad edilmiş ərazilərimizin bərpasından sonra bu yollara daha 2 min kilometr əlavə edilmiş olacaq. Azad edilmiş torpaqlar və Naxçıvan vasitəsilə açılacaq yeni beynəlxalq tranzit marşrutları nəqliyyat-logistika sektorunda iştirakçılar üçün imkanları daha da genişləndirəcək. R.Nəbiyev milli avtomobil daşıyıcıların təkcə yerli bazarda deyil, regionda daha rəqabətqabiliyyətli olması üçün zəruri addımlardan bəhs edib. Nazir yerli şirkətləri qlobal şəbəkənin bir hissəsinə çevrilməyə, ona inteqrasiya etmək üçün səylərini artırmağa çağırıb. Bildirilib ki, innovativ, təhlükəsiz və etibarlı xidmət göstərən yerli şirkətlər beynəlxalq tərəfdaşlıq çərçivəsində regional bazarda mövqelərini möhkəmləndirə bilərlər.

Görüş iştirakçıları avtomobil nəqliyyatı ilə beynəlxalq yükdaşımalar sahəsində təkliflər səsləndirib, mövzuya dair müzakirələr aparılıb, şirkətlərin nümayəndələrinin sualları cavablandırılıb.

## *Ermənilər sosial şəbəkələrdə od püskürdülər:*

# “Əsl “erməni soyqırımı”nı ABŞ Sorosun əli ilə edir”

*Əvvəli 1-ci səh.*

### “Ermənistanda xalq acından ölür”

“Facebook” sosial şəbəkə istifadəçisi Daniel Mkrtçyan qeyd edir ki, Baydenin “soyqırımını” tanıması erməni xalqına heç nə verməyəcək: “Xalqa soyqırımı yox, iş lazımdır. Bu gün ölkədə bahalaşma ilə yanaşı, işsizliyin artması problemini də nəzərə aldıqda, Ermənistandakı çıxılmaz durum bir qədər də aydınlaşır. İşsizlik və bahalaşma Ermənistanın başlıca problemi olan demoqrafik böhranı daha da dərinləşdirir. Ermənistanı tərk edənlərin sayı ildən-ilə artmaqdadır. Nəticədə, burada demoqrafik böhran elə bir həddə çatıb ki, yaxın gələcəkdə ölkənin tamamilə boşalması təhlükəsi ilə üz-üzə qalması reallaşa bilər. Beləcə, bugünkü Ermənistanın timsalında ölkənin səriştəsiz rəhbərliyinin siyasətinin ağır nəticələrini aydın görmək mümkündür. Bu səhvlərin düzəlməsi əvəzinə soyqırımının tanınmasını bayram etmək sadəcə gülməli görünür”.

Manvel Mxıtaryan adlı istifadəçi “Facebook”da paylaşdığı statusunda yazır ki, ABŞ-ın prezidentinin soyqırımı ifadəsini işlətməsi nəyi dəyişəcək ki: “Ermənistanda xalq acından ölür, qaçıb ölkədən canını qurtarmaq üçün variantlar fikirləşir, bunun qarşısında bizim iqtidarın sevindiyi məsələyə baxın. Müharibədə uduzmuşuq, Paşinyan Ermənistanı məhv edib. Satılmayan torpaq qalmayıb. Bunun təhlilini aparın”.

### “Problem soyqırımı deyil, çörəkdir”

“Odnoklassniki” sosial şəbəkəsində paylaşılan “Bayden “erməni soyqırımı”nı tanıdı” başlıqlı xəbərə münasibət bildirən, profil səhifəsində bank sektorunda çalışdığını yazan Qriqor Baqdasaryan adlı istifadəçi isə qeyd edir ki, Paşinyan hakimiyyəti bunu böyük uğur kimi tirajlamağa başlayıb: “Baydenin bir məsələ ilə bağlı açıqlamasını bayram edənlər nəyə və niyə sevinirlər ki? Çönüb ölkəyə bir baxın. Problem Baydenin sözləri deyil, çörəkdir. Xalq acından ölür, kreditlə bağlı müraciətlərin sayı-hesabı yoxdur. Dollar kreditlərinə görə Ermənistanda çoxları böyük problemlərlə üzləşib. Evlərini satanlar, hətta intihar edənlər də olub. Amma onların taleyi nə əvvəlki hökuməti, nə də indikini maraqlandırır”.

“Twitter” sosial şəbəkəsində “erməni soyqırımı” ilə bağlı xəbərin paylaşıldığı səhifədə Vazgen Melukunyan adlı birinin yazdığı rəy də çox bəyənmə toplayıb: “Baydenin ağzından çıxan bir cümləyə görə bu qədər sevinənlər Paşinyan hakimiyyətinə yaltaqlıq edənlərdir. Müqayisəni ABŞ-la deyil, Azərbaycanla aparın. Düşmən dediyimiz ölkənin prezidentinin xalqa xidmətinə baxın, bir də bizimkilərin çıxartdığı hoqqalara. 15 ildir müəllim işləyirəm, bir neçə banka borcum var. Deyəsən, o dünyaya da elə borclu gedəcəyəm. Müqayisəni özünüz aparın”.

### “Hakimiyyət yarıtmaz siyasətini belə ucuz piarla örtmək istəyir”

David Munakyan adlı birinin “Twitter” sosial şəbəkəsindəki paylaşımı da maraqla qarşılanıb: “Acı reallıq olsa da, qəbul edək ki, ABŞ prezidentinin “erməni soyqırımı” deməsinin bu qədər böyüdülməsinə nə ehtiyac var ki? Mediada ancaq bu mövzu ətrafında xəbərlərdir. Hakimiyyət yarıtmaz siyasətini belə ucuz piarla örtmək istəyir. Belə düşük çıxışlara, aktyorluğa yalnız Ermənistanda biz zavallı insanlar inana bilərik”.

Şamo Sasunyan adlı istifadəçinin “VKontakte” sosial şəbəkəsində Paşinyan və Baydenin şəkillərini paylaşaraq “Erməni həqiqətlərini dünyaya çatdıran şəxsiyyətlər” şərhi çoxsaylı tənqidlərə, təhqirlərə tuş gəlib. Vartan Orikyan adlı istifadəçinin bu fotoya şərhi isə daha çox bəyənmə toplayıb: “Sənin dünyadan xəbərin yoxdur. Sən Ermənistanda yaşamırsan? Mətbuatı izləmirsən? Ölkədə aclıq baş alıb gedir. Əsl “erməni soyqırımını” ABŞ Sorosun əli ilə edir. Paşinyan hakimiyyətə gələndən ermənilər üçün nə edib? Yalançı vədlər, uydurma təkliflər”.

### “Xalq yenə Sorosun diktəsi ilə səfalətə sürüklənəcək”

Bunların fonunda diqqətçəkən məqam həm də odur ki, baş nazir Nikol Paşinyanın istefası Ermənistan mediasında və sosial şəbəkələrdə bir nömrəli mövzuya çevrilib. Nikol Paşinyan qarşıdan gələn növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı vəzifəsindən istefa verdiyini bildirib və xalqa videomüraciətində deyib: “İyunun 20-də növbədənkənar parlament seçkilərinin keçirilməsi üçün vəzifəmdən istefa verirəm. Mən aydın şəkildə demişəm ki, xalqın mənə təqdim etdiyi statusdan ancaq xalqın iradə ifadəsinin dəqiq nəticələrinə əsasən tərk edə bilərəm. Belə iradə ifadəsi olmayana qədər mən baş nazir funksiyasını davam etdirəcəm”.

O vurğulayıb ki, bu gün əsas məsələ ölkədə və ətrafında vəziyyətin stabilləşdirilməsidir, onun hökuməti də getmək yox, bu məsələlərin həlli ilə məşğul olmaq niyyətindədir. Baş nazir başqa fəal yayılan şayiəyə də toxunub: “Artıq bir aya yaxındır ki, mənim övladlarımın, mənim ailə üzvlərimin Ermənistanı tərk etməsi haqda yalan şayiələr yayılır. Son aylar ərzində, xüsusən də müharibənin başladığı ilk gündən mənim ailəmin heç bir üzvü Ermənistandan çıxmayıb və bunu eləməyə də hazırlaşmır”.

“Facebook” şəbəkə istifadəçisi Armen Yeqizaryan bu fonda qeyd edir ki, Paşinyanın bu müraciəti Ermənistanın hələ onun vasitəsilə xaricdən idarəsinin davam etdiriləcəyini göstərir: “Xalq arasında nüfuzunu itirən Ermənistan hakimiyyəti indi özünə qarşı edilən bütün çıxışları güc yolu ilə susdurmağa, təşkil olunan etiraz aksiyalarını polis dəyənəyi hesabına dağıtmağa üstünlük verməyə daha çox meyillənir. Bunun nəticəsidir ki, son dövrlərdə Ermənistanda polis repressiyası daha da güclənib və müxalif qüvvələrin, onları dəstəkləyən insanların təqib edilməsi kimi halların sayı əhəmiyyətli dərəcədə artıb. Baş verənlər fonunda ölkə müxalifəti də vəziyyətdən çıxış üçün heç nə vəd etmir”.

“Facebook” sosial şəbəkə istifadəçisi Ruben Soqomonyan isə yazır ki, deməli, bu halda erməni hökuməti yenə xaricdən gələn göstərişlə idarə ediləcək: “Xalq yenə xaricilərin, indiki halda Sorosun diktəsi ilə səfalətə sürüklənəcək. Bu gün yenə ölkənin əmək bazarında da süstlük hökm sürür. Ermənistanda işsizlik səviyyəsi 20, yoxsulluq səviyyəsi 30 faizdən yüksək olduğu halda hər il məşğulluq proqramları müəyyən olunsa da, maliyyə çatışmazlığı ucbatından onlar cəmi 25 faizədək icra oluna bilir. Biz yenə buna dözməli olacağıq. Əvəzində hansısa əhəmiyyəti olmayan Co Baydenin 1915-ci il hadisələri ilə bağlı səsləndirdiyi fikirləri az qala bayram edirik”.

Bütün bunlar Co Baydenin açıqlamalarının Ermənistanda heç də hamı tərəfindən məmnunluqla qarşılanmadığını göstərir. Çünki ermənilərə hansısa qondarma “soyqırımının” tanınması yox, iş, çörək lazımdır.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# İKT sahəsində çalışan qadınların sayı artır

“İKT-də qızlar” mövzusunda keçirilən beynəlxalq konfrans qızların və qadınların müasir texnologiyaların tətbiqində getdikcə artan rolunu araşdırmışdır.

Tədbir İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM), Texnologiyalarda Azərbaycan Qadınları Assosiasiyası - FEMMES DIGITALES, B.EST Solution və “Bloom Group”la birgə keçirilmişdir.

Konfransda giriş nitqi ilə çıxış edən İİTKM-in icraçı direktoru Vüsal Qasımlı qadınların informasiya kommunikasiya texnologiyalarında artan rolundan danışmışdır. Bildirilmişdir ki, “Qızlar İnformasiya və Kommunikasiya Texnologiyaları Günü” hər il aprel ayının dördüncü cümə axşamı qeyd olunur. Bu, müasir dünyamızda ən çox diqqət yetirilən vacib sahələrdəndir. Odur ki, sözügedən mövzunun aktuallığı da getdikcə artır. Məsələn, Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Telekommunikasiya Birliyi dünyanın ən sürətlə inkişaf edən sektorunda qadınların karyera imkanlarının təşviqinin vacibliyini vurğulayır, bu sahədə həllivacib məsələlərin araşdırılmasına diqqət yetirir.

Qeyd olunmuşdur ki, kodlaşdırma, tətbiqlərin hazırlanması və kompüter elmlərini öyrənən qızlar və gənc qadınlar artıq İKT sektorunda uğurlu karyera qurmaqla yanaşı, həm də bacarıqları ilə seçilə biləcəkləri digər sahələrlə müqayisədə böyük üstünlüklər qazanırlar: “Qadınların müasir texnologiyalara getdikcə artan marağı onlara yaradıcılıq və bədii istedadlarını daha geniş çərçivələrdə tətbiq etməyə yeni imkanlar yaradır. Bu baxımdan onların fəaliyyətinin müxtəlif sahələrinin təşviqi xüsusi əhəmiyyət kəsb edir”.

O da nəzərə çatdırılmışdır ki, gənc xanımların STEAM (Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyat) bacarıqlarının və biliklərinin dünyanın müasir tələbləri səviyyəsində artırılması günümüzün vacib məsələlərindəndir: “Bu sahədə müəyyən statistik rəqəmlərin araşdırılması Azərbaycanda qadınların xüsusi çəkisinin bir çox sahələrdə artdığını təsdiq edir. Belə ki, ölkəmizdə müəllimlərin ümumtəhsil müəssisələrində 81, orta ixtisas təhsili müəssisələrində 77,9, ali təhsil müəssisələrində 54,8 faizi, həkimlərin isə üçdən ikisi qadınlardır. Bundan başqa, bütün təhsil alanların ümumtəhsil müəssisələrində 46,4, orta ixtisas təhsili müəssisələrində 62,4, ali təhsil müəssisələrində isə 48,9 faizini qızlar təşkil edir. Azərbaycanda elmin müxtəlif sahələrində çalışan qadınların sayı da kişilərə nisbətən çoxdur. Belə ki, elmi işçilərin 58,1 faizi qadınlardan ibarətdir. Son 10 ildə onlardan elmlər doktoru elmi dərəcəsi olanların sayı 2,6, fəlsəfə doktoru elmi dərəcəsi olanların sayı isə 2,3 dəfə artmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 7-si, müxbir üzvlərindən 10-u qadındır.

Azərbaycan qadınları ölkənin sosial-iqtisadi həyatında da fəal iştirak edir və onların məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi ilkin məlumatlara əsasən 48,2 faizdir. Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 29, sahibkarlar arasında 21,3 faizdir. Parlamentdə qadın deputatların xüsusi çəkisi isə 18,3 faizə çatmışdır”.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# Qarabağa qayıdışla bağlı məcburi köçkünlər arasında keçirilən onlayn sorğu başa çatıb

İşğaldan azad edilmiş ərazilərə qayıdışın səmərəli təşkili üçün repatriasiya potensialını proqnozlaşdırmaq məqsədilə keçirilən birinci sosioloji tədqiqat - onlayn sorğu aprelin 25-i saat 20:00-da dayandırılıb.

ADA Universitetindən AZƏRTAC-a bildirilib ki, sorğuda 65 min nəfər iştirak edib, sorğu səhifəsinə baxış sayı isə 400 mini ötüb. İlkin məlumatlara əsasən, iştirakçıların 54 faizi kişilərdən, 46 faizi isə qadınlardan ibarətdir. Sorğuda iştirak edənlərin 45 faizini 40 yaşa qədər olan ölkə vətəndaşları təşkil edir.

Hazırda onlayn sorğunun nəticələri emal mərhələsindədir. Bu mərhələ yekunlaşdıqdan sonra Tədqiqat Qrupu əldə edilən məlumatların təhlilinə başlayacaq və nəticəni müvafiq dövlət qurumuna təqdim edəcək.



# Baş Prokurorluq Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonunun Başlıbel kəndində törətdiyi qanlı qırğınla bağlı yeni məlumat yayıb

Əvvəllər məlumat verildiyi kimi, 1993-cü ilin aprelində Ermənistan silahlı qüvvələrinin Kəlbəcər rayonunun Başlıbel kəndində kütləvi şəkildə vəhşicəsinə qətlə yetirdiyi mülki şəxslərin cəsədlərinin basdırıldığı yerlərin müəyyənləşdirilməsi faktları üzrə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən cinayət işi başlanıb və intensiv istintaq tədbirləri davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, cinayət işinin istintaqı zamanı müəyyən olunub ki, Azərbaycan Respublikasının digər rayonları ilə yanaşı, 1993-cü il aprelin əvvəllərində Ermənistan silahlı qüvvələri tərəfindən təcavüzə məruz qalan Kəlbəcər rayonunu işğal edərkən rayonun Başlıbel kəndində mülki əhaliyə qarşı xüsusi amansızlıq və qəddarlıq nümayiş etdirilib.

İstintaq materiallarına əsasən, işğaldan əvvəl 259 fərdi evi, 1 orta məktəb, 1 uşaq bağçası, 1 xəstəxanası olan Başlıbel kəndi Kəlbəcər rayonunun ən böyük kəndlərindən biri olmaqla əhalisinin sayı 1996 nəfər olub. Ərazisi 3232 hektar olan kənd iki dağ çayının qovuşduğu yerdə, dəniz səviyyəsindən 2000 metr hündürlükdə, Dəlidağın ətəyində rayon mərkəzindən 64 kilometr məsafədə yerləşir.

Müəyyən edilib ki, 1993-cü il aprelin 3-də Ermənistan silahlı qüvvələri Başlıbel kəndinə silahlı hücum edərək kənd sakinlərinə məxsus evləri kütləvi surətdə qarət edib və tamamilə yandırıb. Kəndi tərk edə bilməyən 62 nəfər təxminən 3 kilometr aralıda, kəndin ən hündür hissəsində yerləşən "Portda" adlanan dağ relyefli ərazidəki təbii mağaralara sığınıb. Həmin 62 nəfərdən 48-i Başlıbel, 1-i Taxtabaşı kəndlərinin, 4-ü Laçın rayonu sakini, 9 nəfər isə kəndi müdafiə edən hərbi qulluqçular olub.

Törətdiyi vəhşiliklə kifayətlənməyən Ermənistan silahlı qüvvələrinin avtomat və iriçaplı silahlarla silahlanmış ünsürləri öz azğınlıqlarını davam etdirərək 1993-cü il aprelin 18-də silahsız mülki şəxslərin doğma kəndlərində qayalara sığındığı yerləri axtararaq aşkarlayıb, köməksiz vəziyyətdə qalmış mülki şəxslərin gizləndiyi mağaraları həmin gün saat 15-dən 21 radələrinədək atəşə tutmağa başlayıblar. Nəticədə silahsız, hər hansı müqavimət göstərmək imkanına malik olmayan 12 nəfər (1-i 12 yaşlı uşaq, 1-i 16 yaşlı yeniyetmə, o cümlədən 6 qadın və 6 kişi olmaqla) - 63 yaşlı Səmədov Yaqub İsa oğlu, 54 yaşlı Əhmədova Büsat Əliş qızı, 12 yaşlı Əhmədova Zövqiyyə Binnət qızı, 60 yaşlı Əmralıyev Məhəmməd Abış oğlu, 29 yaşlı Əmralıyev Surxay Məhəmməd oğlu, 21 yaşlı Əmralıyev Çingiz Məhəmməd oğlu, 16 yaşlı Əmralıyeva Aygün Məhəmməd qızı, 67 yaşlı Həsənova Çiçək Mikayıl qızı, 68 yaşlı Cəfərova Gülara Cəfər qızı, 95 yaşlı Cəfərova Gülgəz Qədim qızı, 22 yaşlı Abdullayev Vüqar İsa oğlu və 52 yaşlı Əsgərov Əhliman Əvəz oğlu sığındıqları yerdə qəsdən öldürülüblər.

Hücum nəticəsində 14 nəfər (2, 13 və 15 yaşlı üç uşaq, 10 qadın, 4 kişi) - 93 yaşlı Babayeva Kubra Qədim qızı, 23 yaşlı Əmralıyeva Arzu Binnət qızı, 56 yaşlı Əhmədov Binnət Əbdüləli oğlu, 13 yaşlı Əhmədov Niyyət Binnət oğlu, 15 yaşlı Əhmədova Şərqiyyə Binnət qızı, 56 yaşlı Əmralıyeva Zibeydə Abış qızı, 67 yaşlı Həsənova Leyli Əli qızı, 58 yaşlı Həsənova Mərmər Cavad qızı, 63 yaşlı Həsənova Şamama Hüseyn qızı, 36 yaşlı Həsənova Zeynəb Mahmud qızı, 63 yaşlı Qasımova Tutu Alı qızı, 2 yaşlı Məhəmmədov Hökmdar Surxay oğlu, 73 yaşlı Yusifova Şamama Ağa qızı və 65 yaşlı Mənsimov Hüseyn İbrahim oğlu girov götürülüb. Həmin şəxslər sonradan girovluqdan azad edilsələr də, onlardan 9-u aldıqları mənəvi və psixoloji sarsıntılardan vəfat ediblər.

İstintaq materialları ilə həmçinin müəyyən olunub ki, cinayətkar qruplaşmanın üzvlərinin əlindən digər mağaralara qaçaraq gizlənən və vəhşilərdən canını qurtarmağa çalışan 36 şəxsdən 7 nəfəri də, mühasirə şəraitində aldıqları xəsarətlərdən Kəlbəcər rayonunun müxtəlif kəndlərində dünyasını dəyişiblər.

Sağ qalmış Başlıbel kənd sakinləri sonrakı tarixlərdə iki qrupa bölünməklə müxtəlif mağaralarda gizlənib, həyatları üçün yaranmış təhlükələrə baxmayaraq, 1993-cü il mayın 12-də gecə saatlarında həmyerlilərinin qətlə yetirildiyi mağaraların yanına yaxınlaşıb odlu silahlarla qətlə yetirilmiş 12 nəfərin meyitlərini paltarlı vəziyyətdə iki cərgə (hər cərgədə 6 qəbir olmaqla) qəbirlər qazmaqla dəfn etdikdən sonra hadisə yerindən uzaqlaşıblar.

1993-cü il aprelin 19-dan sonrakı tarixlərdə isə sağ qalmış 29 nəfər - 21 yaşlı Əhmədova Sevil Binnət qızı, 55 yaşlı Əhmədov Hümmət Əbdüləli oğlu, 45 yaşlı Ələsgərov Ələkbər Ələsgər oğlu, 36 yaşlı Ələsgərova Sərmayə Sadıq qızı, 16 yaşlı Ələsgərov Habil Ələkbər oğlu, 14 yaşlı Ələsgərov Rüstəm Ələkbər oğlu, 12 yaşlı Ələsgərova Samirə Ələkbər qızı, 9 yaşlı Ələsgərova Tacirə Ələkbər qızı, 33 yaşlı Əmralıyev Xasay Məhəmməd oğlu, 31 yaşlı Əmralıyeva Nərgiz Mənsim qızı, 6 yaşlı Əmralıyev Elmdar Xasay oğlu, 4 yaşlı Əmralıyev Şəhriyar Xasay oğlu, 27 yaşlı Əzizov Elşad Həsən oğlu, 25 yaşlı Əzizov İsmət Hüseyn oğlu, 23 yaşlı Cəfərov Mahir Məhyəddin oğlu, 58 yaşlı Qədimov Qədim Muxtar oğlu, 32 yaşlı Həsənov Qəzənfər Mahmud oğlu, 38 yaşlı Həsənov Yahya Mahmud oğlu, 25 yaşlı Əsgərova Həcər Əhliman qızı, 23 yaşlı Əsgərova Laləzər Əhliman qızı, 15 yaşlı Əsgərov Vəkil Əhliman oğlu, 23 yaşlı Abbasov Cəllət Ağaverdi oğlu, 19 yaşlı Mehdiyev Səlim Yusifəli oğlu, 22 yaşlı Abbasquluyev Məzahir Talıb oğlu, 23 yaşlı Abbasov Ədalət Ərzuman oğlu, 25 yaşlı Abdullayev Müzahim Məhərrəm oğlu, 23 yaşlı Əhmədov Xəlil Süleyman oğlu, 22 yaşlı Əsgərov Müşfiq Gülbaba oğlu və 23 yaşlı Muradov Füzuli Əkrəm oğlu 113 gün mühasirə həyatı yaşadıqdan sonra çətin dağ relyefinə malik yollarla Kəlbəcər rayonunun Çaykənd kəndinə, oradan Tərtər çayını və Qoşqar dağını keçməklə Daşkəsən rayonu istiqamətində meşələrlə irəliləyərək 1993-cü ilin iyulunda Daşkəsən rayonunun Zivlən kəndinə çatmaqla həyatlarını xilas edə biliblər.

Baş Prokurorluğun İstintaq idarəsinin müstəntiqləri tərəfindən məhkəmənin meyitlərin ekshumasiyası haqqında qərarına əsasən, 2021-ci il aprelin 24-də Kəlbəcər rayonunun Başlıbel kəndində müvafiq istintaq hərəkətləri keçirilib və 50 santimetr dərinlikdə torpağa basdırılmış, kəskin çürüməyə məruz qalaraq skletləşmiş 12 nəfərin meyitlərinin qalıqları aşkarlanıb.

Bundan başqa, istintaq hərəkəti zamanı cinayət hadisəsinin baş verdiyi yerdə mülki şəxslərin gizləndiyi mağaralarda aşkarlanmış müxtəlif məişət əşyaları, mülki şəxslərin qəsdən öldürülməsini sübut edən giliz və güllələr cinayət-prosessual qanunvericiliyin tələblərinə əsasən qablaşdırılaraq rəsmiləşdirilib. Başlıbel kəndinə dron vasitəsilə keçirilmiş baxış zamanı həmçinin kənd ərazisində işğaldan əvvəl mövcud olmuş bütün yaşayış evlərinin, inzibati binaların, infrastrukturun tamamilə bünövrəsinə kimi dağıdıldığı aşkarlanıb.

Zərərçəkmişlərin şəxsiyyətlərinin müəyyənləşdirilməsi üçün meyit qalıqlarından və dəfn edilmiş şəxslərin yaxın qohumları olduğunu iddia edən ailə üzvlərindən DNT-nin (dezoksiribonuklerin turşusu) təyini məqsədilə nümunələr götürülərək molekulyar-genetik və digər xüsusatların araşdırılması üçün tibbi-kriminalistik ekspertizalar təyin olunub. Hazırda hadisənin sağ qalmış şahidlərinin müəyyənləşdirilməsi, onların dindirilməsi və iş üzrə əhəmiyyət kəsb edən halların müəyyən olunması istiqamətində digər zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın ötən əsrin 90-cı illərindən başlayaraq Azərbaycan vətəndaşlarına qarşı sülh və insanlıq əleyhinə törətdiyi cinayətlərin araşdırılması və təqsirkar şəxslərin müəyyənləşdirilərək milli və beynəlxalq məhkəmə məsuliyyətinə cəlb olunması istiqamətində fəaliyyəti davam etdirəcək.

## Azərbaycanda koronavirusa 806 yeni yoluxma faktı qeydə alınıb




Azərbaycan Respublikasında koronavirus infeksiyasından 1224 nəfər müalicə olunaraq sağalıb, 806 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 31 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 313 min 812 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 280 min 403 nəfər müalicə olunaraq sağalıb, 4402 nəfər vəfat edib. Aktiv xəstə sayı 29 min 7 nəfərdir.

Ötən müddətdə 3 milyon 195 min 268 test aparılıb. Dünənki test sayı isə 5732-dir.

## Azərbaycanda 940 minə yaxın vətəndaş koronavirus əleyhinə peyvəndin birinci dozasını qəbul edib




Aprelin 26-da Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 365 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 362, ikinci mərhələ üzrə peyvənd vurulanların sayı 3 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının sayı 1 milyon 423 min 660-a bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 939 min 460, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 484 min 200 nəfərdir.

## FHN gözlənilən hava şəraiti ilə əlaqədar əhaliyə müraciət edib




Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, aprelin 27-də ölkə ərazisində hava şəraitinin dəyişəcəyi, güclü külək əsəcəyi gözlənilir.

Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, gözlənilən hava şəraiti ilə əlaqədar nazirlik əhaliyə müraciət edərək, təhlükəsizlik naminə ciddi zərurət olmadan güclü küləkli havada bayıra çıxmamağı tövsiyə edir.

Bununla yanaşı, əgər güclü külək sizi küçədə haqlayıbsa, yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durmaq, elektrik dirəyi və naqillərinin, hündür ağacların altında dayanmamaq tövsiyə olunur. Bu zaman diqqətli hərəkət edərək yaxınlıqdakı binanın zirzəmisində və ya möhkəm tikilidə daldalanmağa çalışmaq lazımdır.

Həmçinin güclü külək zamanı xüsusilə açıq hava şəraitində baş verən yanğınların söndürülməsinin mürəkkəbliyi nəzərə alınaraq, yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməsi tövsiyə olunur.

## 18 saylı Birləşmiş Şəhər Xəstəxanasının vəzifəli şəxslərinin qanunsuz əməlləri ifşa edilib

18 saylı Birləşmiş Şəhər Xəstəxanasının vəzifəli şəxslərinin və qeyrilərinin qanunsuz əməlləri ilə əlaqədar vətəndaşlardan daxil olmuş müraciətlər əsasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılıb və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işi başlanıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, aparılmış istintaq-əməliyyat tədbirləri ilə həmin xəstəxananın vəzifəli şəxsləri ilə tibb qeydiyyatçılarının qabaqcadan əlbir olub vəzifə səlahiyyətlərindən sui-istifadə edərək müxtəlif məbləğlərdə pul vəsaitləri müqabilində ayrı-ayrı vətəndaşların, guya, COVID-19 pandemiyası əleyhinə vaksinasiya prosesində müayinədən keçərək peyvənd olunmaları barədə yalan məlumatları müvafiq informasiya portalına daxil etmələri və bununla əlaqədar digər zəruri saxta sənədləri tərtib etmələrinə əsaslı şübhələr yaranıb.

Hazırda cinayət işi üzrə əhəmiyyət kəsb edən halların, cinayətlərin törədilməsində hər hansı formada iştirak etmiş digər şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində əməliyyat-istintaq tədbirlərinin həyata keçirilməsi davam etdirilir.

## Səbail rayonunda tikinti işləri zamanı bir ustanın ölümü, digərinin xəsarət alması ilə bağlı cinayət işi başlanıb

Aprelin 26-da saat 16 radələrində paytaxtın Səbail rayonu ərazisində aparılan tikinti işləri zamanı bir nəfər ustanın ölməsi, digərinin isə müxtəlif dərəcəli bədən xəsarətləri alması barədə Səbail Rayon Prokurorluğuna məlumat verilib.

Səbail Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib.

İlkin araşdırmalarla müəyyən edilib ki, "Kristal Abşeron" MTK-nın Səbail rayonu, Q.Abbasov küçəsi 32/34 ünvanında yerləşən çoxmərtəbəli yaşayış binasının tikintisi zamanı qaldırıcı qurğunun yerə düşməsi nəticəsində 1984-cü il təvəllüdlü Nəriman Salahov həlak olub, 1987-ci il təvəllüdlü Aruz Əhmədov isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Faktla bağlı Səbail Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 162.2-ci (əmək mühafizəsi qaydalarını pozma ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.

Cinayət işi üzrə məhkəmə-tibb və məhkəmə-texniki təhlükəsizlik ekspertizaları təyin olunub, o cümlədən digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.

Hazırda iş üzrə istintaq tədbirləri davam etdirilir.

## Neftçala Rayon Mərkəzi Xəstəxanasının direktoru barəsində cinayət işi başlanıb

Neftçala Rayon Mərkəzi Xəstəxanasının direktoru Quliyev Elman Mətləb oğlunun qanunsuz əməlləri ilə bağlı daxil olmuş vətəndaş müraciəti əsasında aparılmış araşdırma nəticəsində rayon prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Neftçala Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, aparılmış istintaq zamanı Elman Quliyevin vəzifə səlahiyyətlərindən sui-istifadə edərək 2020-ci il ərzində müxtəlif vaxtlarda xəstəxanaya stasionar müalicəyə koronavirus infeksiyasına yoluxmuş xəstə qəbul olunmadığı halda, həmin xəstəxanada işləyən qeyri-tibb və digər işçilərə müddətli əlavənin ödənilməsi ilə bağlı hesablama cədvəli barədə məlumatları hazırlamasına, müvafiq sənədləri imzalayıb möhürlə təsdiqlədikdən sonra həmin işçilərə bank vasitəsilə ümumilikdə 25 min manat məbləğində müddətli əlavənin ödənilməsini təmin etməklə dövlətin mənafelərinə mühüm zərər vurmasına əsaslı şübhələr müəyyənləşdirilib.

Aprelin 22-də Quliyev Elman Mətləb oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib.

İstintaq zamanı vurulmuş maddi ziyanın tam ödənilməsi təmin olunub.

Cinayət işi üzrə ibtidai istintaqın yekunlaşdırılaraq qısa müddətdə məhkəməyə göndərilməsi nəzərdə tutulub.

## Ağcabədi sakinləri işğaldan azad olunmuş ərazilərə nəzarət postlarından kənar yollarla keçməyə cəhd göstərərkən minaya düşüblər

Dəfələrlə edilən xəbərdarlıqlara baxmayaraq, təəssüflər olsun ki, bəzi şəxslərin işğaldan azad olunmuş ərazilərə nəzarət postlarından kənar yollarla keçməyə cəhd göstərmələri hallarına hələ də rast gəlinir.

Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, aprelin 26-da Ağcabədi rayon sakinləri Şahin Verdiyev, qardaşı Aydın və Firdovsi Quliyev işğaldan azad olunmuş ərazilərə nəzarət postlarından kənar yollarla keçməyə cəhd göstərərkən minaya düşüblər. Partlayış nəticəsində Ş.Verdiyev hadisə yerində ölüb, digər iki şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri ilə Ağcabədi Rayon Mərkəzi Xəstəxanasına yerləşdiriliblər.

Prokurorluq və polis əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu hadisə yerinə çıxaraq, zəruri prosessual istintaq-əməliyyat tədbirləri aparılıb, eləcə də müvafiq ekspertlərin və mütəxəssislərin iştirakı ilə baxış keçirilib.

Faktla bağlı Ağdam Rayon Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma), 116.0.6-cı (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.7-ci (qəsdən iki və ya daha çox şəxsi öldürmə) və digər maddələri ilə cinayət işi başlanılıb.

İlkin araşdırmalarla mərhum Şahin Verdiyevin bu il martın 30-da işğaldan azad olunmuş ərazilərə keçməyə cəhd edərkən polis əməkdaşları tərəfindən saxlanılması və Ağdam Rayon Məhkəməsinin qərarı ilə 16 sutka inzibati qaydada həbs edilməsi müəyyən olunub.

Vətəndaşları bu kimi hallardan nəticə çıxarmağa, həyat və sağlamlıqlarını təhlükədə qoyaraq işğaldan azad edilmiş ərazilərə qanunsuz yollarla getməməyə, belə səfərlərdən çəkinməyə çağırırıq.


Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi özünüməşğulluq proqramına cəlb olunacaq şəxslərə təlimlərin keçirilməsi xidmətinin satın alınması ilə əlaqədar

**_açıq tender elan edir_**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı:** **200.00 (iki yüz) manat**
**Satınalan təşkilat:** **Dövlət Məşğulluq Agentliyi**
**VÖEN:** **1300144711**
**Bank:** **Kapital Bank ASC 28 May filialı**
**KOD:** **200123**
**Müxbir hesabı:** **AZ37NABZ01350100000000001944**
**VÖEN:** **9900003611**
**SWIFT:** **AIIBAZ2X**
**H/HESABI:** **AZ47AIIB38060019440817168112**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir;* ***01.04.2021-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);***
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (Əgər təsdiq edilibsə, 2020-ci il üzrə, əks halda 2019-cu il üzrə);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir;* ***01.04.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);***
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir);*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **24.05.2021-ci il saat 16:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **02.06.2021-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **03.06.2021-ci il saat 16:00-da** açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***



Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi

**_açıq tender elan edir_**

- Özünüməşğulluq proqramı çərçivəsində satın alınan inventar, maşın və avadanlıqların saxlanması üçün anbar xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını "ASAN ödəniş" sistemi vasitəsilə köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı:** **300.00 (üç yüz) manat**
**Satınalan təşkilat:** **Dövlət Məşğulluq Agentliyi**
**VÖEN:** **1300144711**
**Bank:** **Kapital Bank ASC 28 May filialı**
**KOD:** **200123**
**Müxbir hesabı:** **AZ37NABZ01350100000000001944**
**VÖEN:** **9900003611**
**SWIFT** **AIIBAZ2X**
**HHESABI:** **AZ47AIIB38060019440817168112**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir;* ***01.04.2021-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);***
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir.* ***01.04.2021-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);***
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması (İddiaçılar tərəfindən müvafiq sahədə peşəkarlığını, təcrübəsini və ixtisaslı kadr imkanlarının mövcudluğu barədə təsdiqedici sənədlər təqdim edilməlidir;*
- *satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Dövlət Statistika Komitəsindən alınmalıdır. Sənədin əsli skan edilməli və PDF formatında yerləşdirilməlidir);*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **21.05.2021-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **01.06.2021-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **02.06.2021-ci il saat 15:00-da** açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# Tovuzda COVID-19-a qarşı mübarizə gücləndirilir

Tovuzda COVID-19-a qarşı mübarizə tədbirlərinin daha da gücləndirilməsi məqsədilə rayon icra hakimiyyəti yanında fəaliyyət göstərən operativ qərargahın videomüşavirə formatında yığıncağı keçirilmişdir.



Rayon İcra Hakimiyyəti başçısının inzibati ərazi dairələri üzrə nümayəndələrinin iştirakı ilə keçirilən müşavirədə RİH-in başçısı Məmməd Məmmədov çıxış edərək xüsusi karantin rejimi qaydalarına nəzarətin gücləndirilməsi ilə bağlı qarşıda duran vəzifələrdən danışmışdır. Qeyd olunmuşdur ki, rayon ərazisində sanitariya qaydalarına ciddi əməl olunmalı, bu işə nəzarət gücləndirilməli, xüsusi karantin rejimi qaydalarına tam məsuliyyətlə əməl olunmalıdır: “Qəbul edilmiş qaydalara riayət olunmasında məsuliyyət daşıyan əsas orqanlardan biri də inzibati ərazi dairələri üzrə nümayəndəliklərdir. Odur ki, nümayəndəliklər bu sahədə fəaliyyətini rayon polis şöbəsinin sahə müvəkkilləri ilə qarşılıqlı şəkildə qurmalı, ehtiyac yarandıqda operativ qərargahı məlumatlandırmalıdırlar”.

Müşavirədə o da vurğulanmışdır ki, virusa qarşı aparılan mübarizə tədbirlərinin əsas istiqamətlərindən biri də əhalinin peyvəndlənməsidir. Bu sahədə əhalinin maarifləndirilməsinə və vaxt itirmədən peyvənd olunmasına çalışmaq lazımdır.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## BİLDİRİŞ

“Azərişıq” ASC tərəfindən 27 yanvar 2021-ci il tarixdə “Elektrik avadanlıqlarının məsafədən avtomatik idarə olunması üçün elektromaqnitli aparatların” satın alınması məqsədilə keçirilmiş açıq tender üzrə təqdim olunmuş iddiaçıların təklifləri Tender komissiyası tərəfindən qiymətləndirilmişdir. Tender komissiyasının qərarına əsasən, müvafiq LOT üzrə **“SABAH CONSTRACTİON” MMC** şirkəti qalib elan olunmuşdur.

Qalib şirkətlə satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

12.03.2021-ci il tarixdə **etender.gov.az** saytında “Dövlət Sosial Müdafiə Fondunun (qurumları) aparat və struktur bölmələrində 2020-ci il üzrə illik maliyyə göstəriciləri əsasında hazırlanmış Maliyyə Hesabatlarının Beynəlxalq Standartların tələblərinə uyğunlaşdırılması xidməti”nin satın alınması üzrə elan edilmiş açıq tender “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 11-ci maddəsinə uyğun olaraq, tenderdə iştirak etmək üçün tender təklifi vermiş iddiaçıların sayı üçdən az olması səbəbilə baş tutmamış hesab edilir və onun davamından imtina edilir.

***Tender komissiyası***

## BİLDİRİŞ

Mərkəzi Muğan Kollektorlarının İstismarı İdarəsi tərəfindən 19 aprel 2021-ci il tarixdə keçirilmiş “Sağ Sahil” kollektorunda (PK 272) körpünün əsaslı təmiri işlərinin elektron formada açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Salyan Melioservis İdarəsi qalib elan olunmuşdur.

Qalib təşkilatla 20 aprel 2021-ci il tarixdə ƏDV daxil 56800.01 (əlli altı min səkkiz yüz manat 01 qəpik) manat məbləğində müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Mərkəzi Muğan Kollektorlarının İstismarı İdarəsi tərəfindən 19 aprel 2021-ci il tarixdə keçirilmiş “Sağ Sahil” kollektorunda (PK 103) körpünün əsaslı təmiri işlərinin elektron formada açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Salyan Melioservis İdarəsi qalib elan olunmuşdur.

Qalib təşkilatla 20 aprel 2021-ci il tarixdə ƏDV daxil 55800.01 (əlli beş min səkkiz yüz manat 01 qəpik) manat məbləğində müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Mərkəzi Muğan Kollektorlarının İstismarı İdarəsi tərəfindən 19 aprel 2021-ci il tarixdə keçirilmiş “Biləsuvar-Cəlilabad rayonları ərazisindəki kollektorların lildən təmizlənməsi işlərinin” elektron formada açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Salyan Melioservis İdarəsi qalib elan olunmuşdur.

Qalib təşkilatla 20 aprel 2021-ci il tarixdə ƏDV daxil 232012.40 (iki yüz otuz iki min on iki manat 40 qəpik) manat məbləğində müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Mərkəzi Muğan Kollektorlarının İstismarı İdarəsi tərəfindən 19 aprel 2021-ci il tarixdə keçirilmiş qum-çınqıl məmulatlarının elektron formada açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə **“Orion-E” MMC** qalib elan olunmuşdur.

Qalib təşkilatla 20 aprel 2021-ci il tarixdə ƏDV daxil 30572.62 (otuz min beş yüz yetmiş iki manat 62 qəpik) manat məbləğində müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Mərkəzi Muğan Kollektorlarının İstismarı İdarəsi tərəfindən 19 aprel 2021-ci il tarixdə keçirilmiş avtomaşın və mexanizmlər üçün ehtiyat hissələrinin elektron formada açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə **“Şərq-Qərb Təchizat” MMC** qalib elan olunmuşdur.

Qalib təşkilatla 21 aprel 2021-ci il tarixdə ƏDV daxil 163923.71 (bir yüz altmış üç min doqquz yüz iyirmi üç manat 71 qəpik) manat məbləğində müqavilə imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

Mərkəzi Muğan Kollektorlarının İstismarı İdarəsi tərəfindən 19 aprel 2021-ci il tarixdə cari təmir işləri üçün tikinti materiallarının, beton məmulatlarının, İmişli rayonu ərazisindəki kollektorların lildən təmizlənməsi işlərinin və Saatlı rayonu ərazisindəki kollektorların lildən təmizlənməsi işlərinin satın alınması məqsədilə elektron formada keçirilmiş açıq tender prosedurlarının yekun protokollarının nəticələri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəyinə əsasən ləğv edilmişdir.

***Tender komissiyası***

## “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” Publik Hüquqi Şəxs

### *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi 170 ünvanından (Əlaqələndirici şəxs: Əhmədağa Salayev, telefon: +99412 310 07 70 (daxili 2011), e-mail: asalayev@its.gov.az) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1: “Qanın bədxassəli xəstəlikləri ilə mübarizə üzrə tədbirlər Proqramı”na dair dərman vasitələrinin satın alınması

**İştirak haqqı:**
**LOT-1. 600.00 (altı yüz manat 00 qəpik) manat;**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Təşkilat: “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” Publik Hüquqi Şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: Kapital Bank ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK -AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazəyə malik olması;*
- *iddiaçının son bir ildəki fəalyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təkliflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;*
